Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti: "İctimai və dövlət maraqları"

# Erməni vandalizmini tarixi faktlarla faş edən nəşr

## Özbəkistan tarixçisi Şuhrat Barlasın "Daşnaklar Fərqanədən Qarabağa qədər" kitabı təqdim olundu

**"Bolşeviklərin terroru nəticəsində Türküstanda milyonlarla insan qətlə yetirilib. Həmin qırğınlarda erməni daşnakların rolu böyükdür. Dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsi əsl terror, etnik təmizləmə və soyqırımıdır"."Kaspi" qəzeti, "Kaspi" Təhsil Mərkəzi və Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə Özbəkistan tarixçisi, publisist və ictimai xadim Şuhrat Salamovun (Barlas) "Daşnaklar Fərqanədən Qarabağa qədər" kitabının təqdimatında səslənən bu fikirlər erməni daşnaklarının həyata keçirdiyi soyqırımının tarixi faktlarla sübuta yetirildiyini bir daha diqqətə çatdırdı.**

Tanınmış alimlər, ictimaiyyət nümayəndələri və jurnalistlərin qatıldığı tədbirdə təqdim olunan kitab, Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyevin təşəbbüsü, ailəsi 1937-ci ildə Naxçıvandan Qazaxıstan və Özbəkistana sürgün edilmiş Mehdi Məmmədovun maliyyə dəstəyi ilə işıq üzü görüb.

Qeyd edək ki, yeni nəşr əvvəlki nəşrlərdən siyasi-hüquqi problemləri və tarixi faktları daha əhatəli çatdırması ilə fərqlənir.

**Azərbaycan Mətbuat Şurası sədrinin müavini Ümid Rəhimoğlu** qeyd etdi ki, əslində "Daşnaklar Fərqanədən Qarabağadək" ensiklopedik məlumat kitabıdır: "Qafqazlardan Orta Asiyaya qədər erməni vandalizminin nişanələri bu kitabda öz əksini tapıb. Onların törətdiyi qanlı hadisələrin nümunələri kitabda əhatəli yer alıb". Ü.Rəhimoğlu qeyd etdi ki, kitabın müəllifi Şuhrat Barlas demək olar ki, Azərbaycanda hər kəsə tanışdır: "Müəllif bu kitabı ərsəyə gətirmək üçün arxivlərdə çalışıb. 300-ə yaxın mənbədən istifadə edib. Bu da kitabın sanballılığını artırır. "Daşnaklar Fərqanədən Qarabağadək" kitabı dərin tədqiqat işidir".

**"Kaspi" Təhsil Şirkətinin təsisçisi Sona Vəliyeva** qeyd etdi ki, erməni daşnaklarının törətdiyi faciənin Özbəkistanda və ya Azərbaycanda baş verməsinin fərqi yoxdur: "Bu, kökü, soyu, ruhu, inancı bir olan millətin başına gətirilən faciədir. Ona görə, "bizim faciəmiz" deyə müraciət edirəm". S.Vəliyeva qeyd etdi ki, "Bu qırğınlar bizə qarşı niyə törədilib?" sualı kitabdan haqlı olaraq keçir. Belə ki, müəllif bu suala cavab axtarır və özü də cavab verir: "Çünki böyük bir xalq və böyük bir ruhun daşıyıcısı olduğumuz, tarixə böyük bir mədəniyyət bəxş etdiyimiz, dünyanın ən sayılıb-seçilən xalqı olduğumuz, bəşər mədəniyyətinə verdiyimiz töhfələrin say və miqyas etibarı ilə zənginliyi üçün bizi gözü götürməyənlər var. Biz, inanclarımızın bir olduğu, tarixə böyük dühalar bəxş edən iki xalqıq. Bəşəriyyət tarixində bir də belə böyük xalq kimi təqdim olunmayaq, bizim analar bir də belə böyük oğullar dünyaya gətirməsin deyə, bu qırğınları törətdilər. Ancaq biz ulu Dədə Qorqudun dediyi kimi, artacağıq, yaşayacağıq, minlərlə belə övladlar dünyaya bəxş edəcəyik". S.Vəliyeva qeyd etdi ki, Fərqanədən başlayan və Özbəkistanın müxtəlif yerlərində olan o hadisələrdə qətlə yetirilən minlərlə insanlar, sonda onların izlərinin itirilməsi üçün vəhşiliklə yandırılması dəhşətli hadisələrdir. Zaman təkrarlanır. Orda basdırılanlar sanki Qubada zühur edib. Özbəkistanın həmin hissələri qazılsa, kütləvi məzarlıqlara rast gələcəyik. Dünyanın o böyük dövlətləri sanki kardır, kordur, bu hadisələri görməzdən gəlirlər. Bu faciələr sonradan Qarabağda, Xocalıda törədilib. Bunlar yaxın bir dövrün hadisələridir. Ancaq dünya bu cür hadisələrə susur. Amma bu gün bizim başımıza gələn o hadisələr sanki onların özünə qayıdır. Ermənilər törədikləri qətliamlara görə, tarix qarşısında cavab verməli olacaqlar".






S.Vəliyeva tövsiyə etdi ki, bu kitabın tirajını artırıb bütün ali məktəblərə yaymaq lazımdır: "Bizim" düşüncəsindən çıxış edərək başımıza gələn faciələri yetişən gəncliyimiz öyrənməlidir. Ona görə bilməlidir ki, bu faciələr bir də təkrarlanmasın. Bu tarixi böyüyən gəncliyimiz yaxşı öyrənməlidir. İstərdim ki, bütün universitetlərdə bu kitabın təqdimatı keçirilsin. Çünki bu, bütövlükdə türk dünyasına qarşı yönəlmiş bir faciədir. Özbəkistanda da, Qarabağda da baş verən faciələr bizimdir. Orda qətlə yetirilən o körpələr, günahsız insanlar, eləcə də burda baş verən oxşar faciələr də bizimdir. Başımıza gələn faciələrin arxasında həmişə böyük qüvvələr durur. Ona görə, düşünürəm ki, faciələr unudulmamalı, onları törədənlərə qarşı qınaq və məhkəmə tələbimiz olmalıdır. Onlar tarix və o günahsız insanların ruhu qarşısında cavab verəmlidirlər".

S.Vəliyeva kitabın ərsəyə gəlməsində xidməti olanlara təşəkkürünü bildirdi: "Bu kitabın ərsəyə gəlməsində Kökü Naxçıvana bağlı, Özbəkistanda doğulmuş, ancaq Qazaxıstana sürgün olunmuş ailənin övladı olan və hazırda orada yaşayan Mehdi bəyi xatırlamaq istəyirəm. O, kitabın 18 min tirajla işıq üzü görməsinin maddi dəstəkçisidir. Biz bu cür Azərbaycan oğlu ilə qürur duyuruq".

**Daşkənddəki Heydər Əliyev Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasov** qeyd etdi ki, xalqımızın başına gələn faciələri, soyqırımı dünya xalqlarına çatdırmaq üçün bu kitab gözəl mənbədir: "Artıq bir neçə ildir ki, Şuhrat Salamovla birlikdə çalışırıq. Əsas odur ki, o, özündən sonra bir nəsil yetişdirib. Müəllifin bu tədqiqat işinin əsas məğzi odur ki, ilk dəfə olaraq daşnakların Qafqazlarda həyata keçirdiyi soyqırımı siyasəti tarixi faktlara əsaslanaraq açılıb. Özbəkistan Sovet Ensiklopediyasında daşnakların aqressiyaları nəticəsində 500 insanın öldürüldüyü göstərilir. Ancaq Şuhrat Salamovun faktları əsasında artıq 700 minə yaxın insanın qətlə yetirildiyi faktlarla qeyd olunub". S.Abbasov qeyd etdi ki, 1918-ci ildə baş verən hadisələr Türküstandan başlayaraq mart soyqırımı kimi Bakı qəzasında, Şamaxıda paralel olaraq xalqımıza qarşı törədilmiş cinayətdir: "Bu hadisələrin analizini verən Şuhrat bəy Türküstan, Azərbaycan, müsəlman və türkdilli ölkələrin daşnakların bu cinayətlərinə məruz qaldığı qənaətinə gəlib: "Müəllif bizim milli etnik kökümüzün bir olmasını əsas göstərir. Müəllif xüsusilə ermənilərin cinayətlərini, terrorist fəaliyyətlərini geniş işıqlandırıb və "Gülüstan" sülh müqaviləsindən sonra Qafqaza, xüsusən ermənilərin Azərbaycana, habelə 300 min erməninin Avropaya köçürülməsini tarixi faktlarla sübut edib. Ermənilərin iddia etdiyi kimi bunun soyqırımı olmadığını, sadəcə onların köç etdiyini sübut edib".

**Nəşrin məsul redaktoru, professor Oleq Kuznetsov** müəllifin həqiqətən ortaya sanballı tədqiqat əsəri qoyduğunu qeyd etdi: "Aydın məsələdir ki, ermənilər şərəfsiz adamların əlləri ilə özlərinin Orta Asiyada müsəlmanlara qarşı törətdikləri cinayətləri ört-basdır etmək istəyirlər. O baxımdan, özbək alim Şöhrət Barlasın yazdığı bu kitab çox önəmlidir .Bu tədqiqatlarına görə, Şuhrat Barlas təzyiqlərə məruz qaldı. Eyni vəziyyəti mən də Moskvada yaşamışam". O.Kuznetsov qeyd etdi ki, kitabda müxtəlif mənbələrə istinad olunub. Kitab ermənilərin bəşəriyyətə qarşı törətdikləri cinayətlərin ifşa olunması baxımından böyük əhəmiyyət daşıyır. Daşnakların Özbəkistan xalqının taleyindəki mənfi izini görmək, daha sonra Qarabağda törədilən hadisələrin də bunun davamı olduğunu bilmək üçün bu kitab sanballı mənbədir".

**Yazıçı-publisist Yunus Oğuz** qeyd etdi ki, kitabda əks olunan faciə təkcə XX əsrin əvvəllərindən türklərə qarşı başlayan faciə deyil. Bu ta İslam dövründən başlayan faciələrdir: "Hesab edirəm ki, bu kitabın dünyada tanınmasına ehtiyac var. Qoy bu kitab dünyaya ibrət olsun. Tarix həm də ibrətdir".

**Kitabın müəllifi Şuhrat Barlas** "Bu qədər həyəcanı başqa yerdə yaşamamışam" deyə ürək sözlərini dilə gətirdi: "Mən burda dostlarımın əhatəsindəyəm. Biz qardaşıq, həmişə Azərbaycanın yanındayıq. Kitabın ərsəyə gəlməsinə görə mənə dəstək olanların hamısına təşəkkürümü bildirirəm".

Tədbirdə kitab əsasında çəkilən sənədli film də ilk dəfə nümayiş olundu.

**Təranə Məhərrəmova**

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.**